**“Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2024-cü il avqustun 19-da Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş” təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 oktyabr 2024-cü il
№ 59-VIIQ

**Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında**

## SAZİŞ

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti (bundan sonra “Tərəflər” adlandırılacaqlar),

karantin nəzarətində olan məhsulların qarşılıqlı ticarəti zamanı karantin tətbiq edilən zərərli orqanizmlərin daxil olmasının və yayılmasının qarşısının alınması məqsədilə əməkdaşlığın və birgə tədbirlərin vacibliyini qəbul edərək,

bitki karantini və mühafizəsi sahəsində əməkdaşlığı davam etdirmək niyyətini ifadə edərək,

1951-ci il “Bitki mühafizəsi haqqında” Beynəlxalq Konvensiyanın (1997-ci ilin redaksiyasında) (bundan sonra - Konvensiya) müddəalarını, Tərəflərin dövlətlərinin qanunvericiliyini rəhbər tutaraq, eləcə də fitosanitar tədbirlərə dair beynəlxalq standartların və Kodeks Alimentarius beynəlxalq qida standartları məcəlləsinin müddəalarını nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

### Maddə 1

Bu Sazişin məqsədləri üçün aşağıdakı mənaları ifadə edən anlayışlardan istifadə olunur:

**“aqrokimyəvi maddələr”** - bitkilərin qidalanması və torpağın münbitliyinin tənzimlənməsi üçün istifadə olunan kimyəvi və ya bioloji mənşəli gübrələr, kimyəvi meliorantlar;

**“karantin tətbiq edilən zərərli orqanizm”** - ərazidə hələlik mövcud olmayan və yaxud mövcud olaraq məhdud dairədə yayılmış və rəsmi mübarizə obyektinə çevrilmiş, təhlükəyə məruz qalmış ərazi üçün potensial iqtisadi əhəmiyyətə malik olan zərərli orqanizm;

**“fitosanitar karantin yoxlaması (nəzarəti)”** - Tərəfin bitki karantini və mühafizəsi üzrə milli təşkilatının karantin nəzarətində olan məhsullarda karantin obyektlərinin müəyyən edilməsinə, fitosanitar karantin tələblərinə riayət olunmasının təmin edilməsinə, onun dövlətinin milli qanunvericiliyinin tələblərinin pozulmasının qarşısının alınmasına və aradan qaldırılmasına, dövlətinin bitki karantini sahəsində beynəlxalq öhdəliklərinin yerinə yetirilməsinə yönəlmiş fəaliyyətləri;

**“zərərsizləşdirmə”** - zərərli orqanizmlərin məhv edilməsi, ləğv edilməsi, sterilizasiyası (çoxalma qabiliyyətindən məhrum edilməsi) və ya onların həyat qabiliyyətindən məhrum edilməsi proseduru;

**“karantin nəzarətində olan məhsullar”** - karantin obyektlərinin daşıyıcısı ola bilən və (və ya) onların yayılmasına kömək edən və barələrində fitosanitar karantin tədbirlərinin görülməsi tələb olunan bitkilər, bitkiçilik məhsulları, taralar, qablaşdırma, o cümlədən qablaşdırma materialları, yük, torpaq, orqanizm və materiallar;

**“partiya”** - tərkibinin, mənşəyinin və s. bircinsliyi ilə seçilən və yükün bir hissəsini təşkil edən eyni mal vahidlərinin məcmusu;

**“pestisidlər”** - hər hansı bir zərərli orqanizmi uzaqlaşdırmaq, məhv etmək və ya onunla mübarizə aparmaq, habelə bitkilərin böyüməsini tənzimləmək üçün nəzərdə tutulmuş istənilən maddələr və ya kimyəvi və ya qeyri-kimyəvi maddələr qarışığı;

**“tənzimlənən zərərli orqanizm”** - karantin tətbiq edilən zərərli orqanizm və ya tənzimlənən karantin tətbiq edilməyən zərərli orqanizm;

**“fitosanitar sertifikat”** - yükün fitosanitar idxal tələblərinə uyğun olduğunu təsdiq edən, Konvensiyanın sertifikat modeli üzrə tərtib edilmiş rəsmi kağız sənəd və ya onun rəsmi elektron ekvivalenti.

**Maddə 2**

Bu Sazişin predmeti bitki karantini və mühafizəsi sahəsində, fitosanitar karantin təhlükəsizliyinin və Tərəflərin dövlətlərinin ərazilərinin karantin tətbiq edilən zərərli orqanizmlərin gətirilməsindən və yayılmasından mühafizə səviyyəsinin yüksəldilməsi, onların yaratdığı itkilərin azaldılması, habelə fitosanitar karantin yoxlaması (nəzarəti) tətbiq edilən karantin nəzarətində olan məhsulların beynəlxalq ticarətində maneələrin aradan qaldırılması üzrə birgə tədbirlərin hazırlanması sahəsində Tərəflərin əməkdaşlığıdır.

**Maddə 3**

Bu Sazişin həyata keçirilməsi üzrə Tərəflərin səlahiyyətli orqanları aşağıdakılardır:
Azərbaycan tərəfindən - Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi;
Rusiya tərəfindən - Baytarlıq və Fitosanitar Nəzarəti üzrə Federal Xidmət.
Səlahiyyətli orqanlarda və ya onların adlandınlmasında dəyişiklik olduğu təqdirdə, Tərəflər bu barədə bir-birlərini yazılı formada diplomatik kanallar vasitəsilə məlumatlandırırlar.

**Maddə 4**

Bir Tərəfin dövlətinin ərazisindən (bundan sonra - ixrac edən dövlət) digər Tərəfin dövlətinin ərazisinə (bundan sonra - idxal edən dövlət) idxal olunan və ya bir Tərəfin dövlətinin ərazisindən digər Tərəfin dövlətinin ərazisinə tranzitlə daşman karantin nəzarətində olan məhsulların hər bir partiyası ixrac edən dövlətin səlahiyyətli orqanı tərəfindən verilən fitosanitar sertifikatı və ya təkrar ixrac fitosanitar sertifikatı ilə müşayiət olunmalıdır.
Fitosanitar sertifikatın mövcudluğu Tərəfin idxal olunmuş karantin nəzarətində olan məhsullara fitosanitar karantin yoxlaması (nəzarəti) aparmaq və idxal edən dövlətin qanunvericiliyinin fitosanitar tələblərində nəzərdə tutulmuş fitosanitar karantin tədbirləri görmək hüququnu istisna etmir.
Tərəflərin səlahiyyətli orqanları fitosanitar karantin yoxlaması (nəzarəti) nəticəsində müəyyən edilmiş fitosanitar tələblərin pozulması halında yükü ixracatçıya geri qaytarmaq və ya zərərsizləşdirmək, zərərsizləşdirmək mümkün olmadıqda isə idxal edən dövlətin qanunvericiliyinin fitosanitar tələblərinə uyğun olaraq onu məhv etmək hüququna malikdirlər və bu barədə müvafiq Tərəfin səlahiyyətli orqanına elektron məlumat mübadiləsi vasitəsilə məlumat verməlidirlər.
Karantin nəzarətində olan məhsullara fitosanitar karantin yoxlaması (nəzarəti) idxal edən dövlətin milli qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.
Hər bir Tərəfin səlahiyyətli orqanları onların dövlətlərinin ərazisinə karantin nəzarətində olan məhsulların ayrı-ayrı partiyalarının idxalı zamanı öz dövlətlərinin qanunvericiliyə uyğun olaraq belə məhsulların fitosanitar vəziyyətinə dair əlavə tələblər (zərərsizləşdirmə, yeni tara, torpaq və yad qatışıqların olmaması, herme-tiklik və s.) irəli sürmək hüququna malikdirlər.

**Maddə 5**

Tərəflər bitki karantini və mühafizəsi sahəsində səmərəli əməkdaşlığı təmin etmək məqsədilə öz dövlətlərinin qanunvericiliyinə uyğun olaraq aşağıdakı sahələrdə əməkdaşlıq edirlər:
- idxal edən dövlətin fitosanitar tələblərinə uyğun olaraq karantin nəzarətində olan məhsulların idxalı, ixracı və tranziti zamanı ixrac edən dövlətin ərazisindən idxal edən dövlətin ərazisinə tənzimlənən zərərli orqanizmlərin yayılmasının qarşısını almaq üçün zəruri tədbirlərin görülməsi;
- karantin nəzarətində olan məhsulların ixrac edən dövlətin ərazisindən idxalı, ixracı və tranziti zamanı idxal edən dövlətin fitosanitar qaydalarına riayət edilməsi üçün zəruri tədbirlərin görülməsi;
- Tərəflərin dövlətlərinin karantin nəzarətində olan məhsulların idxalını, ixracını və tranzitini tənzimləyən qanunvericiliyi üzrə məlumat mübadiləsi, o cümlədən elektron formada və ona edilən bütün dəyişikliklər barədə bir-birlərinin məlumatlandırılması;
- Tərəflərin dövlətlərində qeydiyyata alınmış pestisidlər və aqrokimyəvi maddələr haqqında məlumat mübadiləsi;
- idxal edən dövlətdə istifadəsi qadağan olunmuş pestisidlərin və aqrokimyəvi maddələrin ixracının qarşısının alınması üçün tədbirlərin görülməsi;
- ixrac edən dövlətdə istifadəsi qadağan olunmuş pestisidlərdən və aqrokimyəvi maddələrdən istifadə etməklə istehsal olunan bitki mənşəli materialların ixracının qarşısının alınması üçün tədbirlərin görülməsi;
- Tərəflərdən birinin sorğusu əsasında digər Tərəfin dövlətinin ərazisində

pestisidlərin və aqrokimyəvi maddələrin istifadəsinə nəzarət sistemi ilə tanış olmaq məqsədilə sorğu edən Tərəfin dövlətinin ərazisinə ixrac üçün nəzərdə tutulan məhsulların istehsal yerinə baş çəkilməsi;

- pestisidlərdən və aqrokimyəvi maddələrdən təhlükəsiz istifadə sahəsində elmi nailiyyətlərin və təcrübənin öyrənilməsi məqsədilə Tərəflərin ekspertləri arasında məsləhətləşmələrin aparılması;
- bitki karantini və mühafizəsi sahəsində bir-birlərinə elmi, texniki və digər yardım göstərilməsi.

**Maddə 6**

Karantin nəzarətində olan məhsulların ixrac edən dövlətin ərazisindən idxal edən dövlətin ərazisinə ixracı zamanı karantin tətbiq edilən zərərli orqanizmlərdən azad yeni qablaşdırma istifadə olunmalıdır. Qablaşdırma və qablaşdırma materialları torpaqdan azad olmalıdır. Quru ot, küləş, püfə, ağac yonqarı, yarpaq və digər bitki mənşəli materiallar qablaşdırma qismində istifadə edilə bilməz. Taxta qablaşdırma materialı, “Beynəlxalq ticarətdə taxta qablaşdırma materialının tənzimlənməsi” adlı Fitosanitar Tədbirlər üzrə 15 saylı Beynəlxalq Standartın müddəalarına uyğun olaraq müvafiq emaldan keçməli və etiketlənməlidir.

Karantin nəzarətində olan məhsulların ixrac edən dövlətin ərazisindən idxal edən dövlətin ərazisinə daşınması üçün istifadə olunan nəqliyyat vasitələri hərtərəfli təmizlənməli və zərurət olduqda zərərsizləşdirilməlidir.

**Maddə 7**

Bir Tərəfin dövlət ərazisindən digər Tərəfin dövlət ərazisinə karantin nəzarətində olan məhsulların idxalı, ixracı və tranziti Tərəflərin dövlət sərhədindən buraxılış məntəqələrində həyata keçirilir.

**Maddə 8**

İdxal edən dövlətin səlahiyyətli orqanı fitosanitar yoxlaması (nəzarəti) həyata keçirilən zaman, karantin nəzarətində olan məhsulların Tərəflərin dövlətlərinin ərazisindən tranzit keçməsi halları da daxil olmaqla, karantin tətbiq edilən zərərli orqanizmlər aşkar edildiyi təqdirdə, idxal edən dövlətin qanunvericiliyinin fitosanitar tələblərinə uyğun olaraq karantin nəzarətində olan məhsullar barədə tədbirlər görür və aşkarlanmış pozuntular və görülmüş tədbirlər barədə ixrac edən dövlətin səlahiyyətli orqanına məlumat verir.

**Maddə 9**

Tərəflərin səlahiyyətli orqanlan bu Sazişin müddəalarının həyata keçirilməsi ilə əlaqədar olan praktiki məsələlərin həlli üçün zərurət yarandıqda, lakin iki ildə bir dəfədən az olmamaqla, Tərəflərdən birinin dövlətinin ərazisində, eləcə də virtual formatda işçi görüşlər keçirirlər.

Öz nümayəndələrinin işçi görüşlərdə iştirak etmək üçün göndərilməsi ilə bağlı xərcləri hər bir Tərəf müstəqil qarşılayır.

**Maddə 10**

Bu Sazişin təfsiri və ya tətbiqi ilə bağlı fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

**Maddə 11**

Tərəflərin qarşılıqlı yazılı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan və ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və/və ya əlavələr edilə bilər.

**Maddə 12**

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır. Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı 6 ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərmədiyi təqdirdə, onun müddəti avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılır.

Bakı şəhərində 19 avqust 2024-cü il tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır və hər iki mətn eyni qüvvəyə malikdir.

**Azərbaycan Respublikası Hökuməti adından**
*(imza)*

**Rusiya Federasiyası Hökuməti adından**
*(imza)*